**UOT: 711,554**
https://doi.org/10.59849/2409-4838.2025.2.156

# QUBA-XAÇMAZ İQTİSADİ RAYONUNDA SƏNAYE SAHƏLƏRİNİN VƏ ƏRAZİ MƏNİMSƏNİLMƏSİNİN COĞRAFİ FƏRQLƏRİ

**Elvira Həsən qızı Hüseynova**[1,2]
[1]Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
[2]Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
*elvira.huseynova030@gmail.com

*Quba-Xaçmaz iqtisadi rayonu Azərbaycanın şimal-şərq hissəsində yerləşərək həm iqtisadi, həm də coğrafi baxımdan mühüm əhəmiyyətə malikdir. İqtisadi rayonu təbii sərvətləri, sənaye sahələrinin ərazi təşkili, kənd təsərrüfatı potensialı və strateji mövqeyi ilə fərqlənir. Son illərdə regionda sənaye sahələrinin inkişafı üçün müxtəlif təşəbbüslər olsa da, sənaye potensialının tam şəkildə reallaşdırılmasında hələ də ciddi problemlər qalmaqdadır. Sənayenin inkişafı və ərazi mənimsənilməsinin düzgün tənzimlənməsi həm iqtisadi baza, həm də sosial bərabərlik baxımından vacibdir. Təqdim olunan məqalədə Quba-Xaçmaz iqtisadi rayonunda sənaye sahələrinin optimallaşdırılması və ərazinin mənimsənilməsinin təkmilləşdirilməsi, eləcə də ərazi fərqləri məsələləri müzakirə edilir. Tədqiqat işinin əsas məqsədi iqtisadi rayonda sənaye sahələrinin inkişaf dinamikasını müəyyən etmək və əhalinin ərazi üzrə sıxlığının optimallaşdırılması üçün təkliflərin irəli sürülməsidir. Bu kontekstdə sənaye sahələrinin müasir vəziyyəti kompleks şəkildə təhlil edilmiş, əhali məskunlaşmasının tarazlıqlı şəkildə həyata keçirilməsi üçün strateji yanaşmalar təqdim edilmişdir. Həmçinin sənaye və ərazi siyasətinin inteqrasiyasının önəmi vurğulanmışdır. Bu araşdırma Quba-Xaçmaz iqtisadi rayonunun sosial-iqtisadi inkişafını daha məqsədəuyğun şəkildə inkişaf etdirmək və əhalinin həyat şəraitini yaxşılaşdırmaq üçün sənaye sahələrinin ərazi təşkilinin və ərazi mənimsənilməsinin optimallaşdırılması yönündə konkret və tətbiqi təkliflər təqdim edir.*

***Açar sözlər**: Quba-Xaçmaz, sənaye, ərazi, məskunlaşma, optimallaşdırılma*

## GİRİŞ

Quba-Xaçmaz iqtisadi rayonu Azərbaycanın şimal-şərq hissəsində yerləşərək olduqca əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir. Xəzər dənizinə çıxışının olması, eyni zamanda ölkənin əsas nəqliyyat magistrallarına (Şimal-Cənub nəqliyyat dəhlizi) yaxın yerləşməsi regiona iqtisadi və logistik baxımdan strateji əhəmiyyət qazandırır. Bu ərazi, zəngin təbii resurslar, əlverişli iqlim şəraiti, aqrar sənaye sahələri və kənd təsərrüfatı üçün yararlı torpaqları ilə seçilərək həm hasilat, həm də emal sənaye sahələrinin inkişafı üçün geniş imkanlar təqdim edir.

İqtisadi rayonun iqtisadi bazasında əsasən kənd təsərrüfatı, xüsusilə bağçılıq, tərəvəzçilik və taxılçılıq mühüm rol oynayır. Lakin bu resurslardan optimal şəkildə istifadə edilməməsi, sənayenin ərazi üzrə qeyri-bərabər paylanması və əmək ehtiyatlarından səmərəsiz istifadə mövcud potensialı tam şəkildə reallaşdırılmağa imkan vermir. Bu səbəbdən Quba-Xaçmaz iqtisadi rayonunda sənaye potensialının artırılması ilə yanaşı əhali məskunlaşmasının düzgün tənzimlənməsi də regionun davamlı və balanslı inkişafı baxımından mühüm strateji məsələ kimi qarşıya çıxır. Quba-Xaşmaz iqtisadi rayonunda sənaye müəssisələrinin yerləşdirilməsi zamanı mövcud əmək resursları, təbii sərvətlər, nəqliyyat infrastrukturu və əhali sıxlığı kimi göstəricilər nəzərə alınmalıdır. Eyni zamanda şəhər və kənd yaşayış məntəqələri arasında iqtisadi əlaqələrin gücləndirilməsi və sənaye fəaliyyətlərinin regionun müxtəlif hissələrinə yayılması həm sosial, həm də iqtisadi baxımdan bərabər inkişafın təmininə xidmət edə bilər. Əks halda urbanizasiya proseslərinin tənzimlənməməsi və sənayeləşmənin mərkəzləşməsi region daxilində sosial-iqtisadi fərqlərin dərinləşməsinə gətirib çıxara bilər [5, s. 880]. Bu baxımdan, Quba-Xaçmaz iqtisadi rayonunda sənaye sahələrinin ərazi təşkilinin optimallaşdırılması və ərazi mənimsənilməsinin kompleks şəkildə planlaşdırılması regional siyasətin prioritet

istiqamətlərindən biri olmalıdır. Bu proses yalnız iqtisadi inkişafın deyil, həm də sosial rifahın və ətraf mühitin davamlılığının əsas təminatçısı kimi çıxış edir.

## ƏSAS HİSSƏ

### Quba-Xaçmaz iqtisadi rayonunun sənaye potensialının müasir vəziyyətinin təhlili

Quba-Xaçmaz iqtisadi rayonunun sənayesi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı, qida və digər sənaye sahələri ilə təmsil olunur. Bu sahələr həm daxili tələbatın ödənilməsi, həm də ixrac imkanlarının genişləndirilməsi baxımından önəm daşıyır. Hazırda Quba rayonunda meyvə-tərəvəz emalı, Xaçmaz rayonunda konserv və içki istehsalı, Siyəzən rayonunda neft-qaz hasilatı, tikinti materiallarının istehsalı və s. sahələrdə müəyyən irəliləyişlər əldə olunmuşdur. Lakin sənaye sahələrinin fəaliyyətləri iqtisadi rayon üzrə qeyri-bərabər paylanması və bəzi rayonlarda sənaye infrastrukturunun zəif inkişaf etməsi bu potensialın tam istifadə olunmasına mane olur. Məsələn, Şabran və Qusar rayonlarında sənayeləşmə səviyyəsi aşağı olmaqla, əsasən xırda və fərdi müəssisələr üstünlük təşkil edir. Bu isə iqtisadi fəaliyyətin səmərəliliyini azaldır və ərazi üzrə işsizlik səviyyəsinin artmasına səbəb olur. Eyni zamanda sənaye müəssisələrinin şəhər mərkəzlərində cəmlənməsi kənd yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafını zəiflədir və urbanizasiya təzyiqlərini artırır. Sənaye strukturu baxımından regionun iqtisadi diversifikasiyası tam təmin edilməmişdir. Əsas diqqət kənd təsərrüfatı məhsullarının ilkin emalına yönəldiyindən, yüksək texnoloji və innovativ sənaye sahələri üzrə fəaliyyət demək olar ki yoxdur. Bu isə həm ixrac potensialını məhdudlaşdırır, həm də rəqabətqabiliyyətli məhsul istehsalına mane olur. Eyni zamanda sənaye müəssisələrinin çoxu özəl sektorun təşəbbüsü ilə yaradıldığından dövlət səviyyəsində koordinasiya və inkişaf proqramları yetərincə effektiv tətbiq olunmur. Quba-Xaçmaz iqtisadi rayonunda infrastrukturun – yolların vəziyyəti, enerji və su təchizatı sistemləri, rabitə imkanlarının sənaye fəaliyyətlərinə tam uyğun olmaması da problemlər sırasındadır. Məsələn, bəzi kəndlərdə elektrik enerjisində fasilələr və nəqliyyat çətinlikləri sənaye fəaliyyətini əngəlləyir [3, 6]. Eyni zamanda, regionda təcrübəli və ixtisaslı kadr çatışmazlığı da sənaye müəssisələrinin fəaliyyət səmərəliliyinə mənfi təsir göstərir. Beləliklə, Quba-Xaçmaz iqtisadi rayonunda sənaye potensialı nəzərəçarpacaq dərəcədə mövcud olsa da, bu potensialdan tam istifadə edilə bilməməsi planlaşdırma, infrastruktur, ərazi balansı və insan resursları kimi sahələrdə sistemli yanaşmanın olmaması ilə bağlıdır. Gələcək inkişaf üçün regionda sənayeləşmənin düzgün yönləndirilməsi, texnoloji yeniliklərin tətbiqi və ərazi üzrə balanslaşdırılmış iqtisadi siyasətin həyata keçirilməsi zəruridir.

### Quba-Xaçmaz iqtisadi rayonunda sənaye sahələrinin ərazi təşkilinin optimallaşdırılması üçün strateji yanaşmalar

Quba-Xaçmaz iqtisadi rayonunda sənaye sahələrinin ərazi təşkilinin optimallaşdırılması regionun sosial-iqtisadi inkişafının dayanıqlığı baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə ilk növbədə sənaye istehsalında müasir texnologiyaların tətbiqi ön plana çıxmalıdır. Ənənəvi və texnoloji cəhətdən köhnəlmiş istehsal sistemləri iqtisadi səmərəliliyi aşağı salmaqla yanaşı, rəqabət qabiliyyətli məhsul istehsalına da mane olur. Bu baxımdan sənaye müəssisələrinin avtomatlaşdırılmış və rəqəmsal texnologiyalarla təchiz edilməsi, eyni zamanda enerji səmərəliliyinə və ekoloji dayanıqlılığa önəm verən istehsal modellərinə keçidi təmin etmək vacibdir. Yerli resurslardan səmərəli istifadə də sənaye inkişafında mühüm rol oynayır. Regionun zəngin kənd təsərrüfatı potensialı və yerli xammal bazası, xüsusilə tikinti materialları, meyvə-tərəvəz və süd məhsulları sahəsində emal sənayesinin inkişafı üçün əlverişli imkanlar yaradır. Lakin bu resursların koordinasiyalı şəkildə sənaye istehsalına cəlb olunması üçün kompleks planlaşdırma və ərazi üzrə istehsal zəncirlərinin formalaşdırılması vacibdir. Bu zəncirlərdə xammalın tədarükündən son məhsulun istehlak bazarına çıxarılmasına qədər bütün mərhələlər optimal şəkildə qurulmalıdır. Strateji yanaşmalardan biri də sənaye məhəllələrinin və ixtisaslaşmış sənaye parklarının yaradılmasıdır. Bu cür məkanlar sənaye müəssisələrinin coğrafi baxımdan rasional yerləşməsini təmin etməklə yanaşı, logistika, kommunal xidmətlər və əmək ehtiyatlarına çıxış baxımından səmərəlilik yaradır. Sənaye məhəllələri klaster

tipli inkişaf modelinə əsaslanaraq eyni və ya tamamlayıcı sahələr üzrə ixtisaslaşmış müəssisələrin bir yerdə fəaliyyət göstərməsinə imkan verir. Bu isə həm istehsal xərclərinin azaldılmasına, həm də innovasiya və texnologiya transferinin sürətlənməsinə gətirib çıxarır. Eyni zamanda, region üzrə sənayeləşmə strategiyasında kadr hazırlığı və peşə təhsili sisteminin inkişafı da nəzərə alınmalıdır. Yüksək ixtisaslı mütəxəssislərin çatışmazlığı mövcud sənaye müəssisələrinin səmərəli fəaliyyətinə maneə törədir. Buna görə də, yerli əmək bazarının tələblərinə uyğun peşəkar təlim mərkəzlərinin yaradılması və sənaye sektorunun tələbləri ilə uyğunlaşdırılmış kadr hazırlığı mexanizminin tətbiqi mühüm prioritetlərdəndir. Sonda, sənaye təşkilinin optimallaşdırılması üçün regionda dövlət və özəl sektor arasında əməkdaşlığın dərinləşdirilməsi, institusional dəstək mexanizmlərinin gücləndirilməsi və uzunmüddətli investisiya planlarının hazırlanması tələb olunur [7, 8]. Bu yanaşmalar yalnız sənaye sahəsində səmərəliliyin artırılmasına deyil, həm də əhalinin məşğulluq imkanlarının genişlənməsinə və regionun ümumi iqtisadi potensialının reallaşdırılmasına zəmin yarada bilər.

**Quba-Xaçmaz iqtisadi rayonunda ərazi məskunlaşmasının cari vəziyyəti və problemləri**

Quba-Xaçmaz iqtisadi rayonunda əhali məskunlaşmasının strukturuna nəzər saldıqda, aydın olur ki, məskunlaşma formalarında şəhər və kənd yaşayış məntəqələri arasında ciddi disbalans mövcuddur. Əhali əsasən rayon mərkəzləri və iri yaşayış məntəqələrində cəmləşib. Bu proses xüsusilə Quba və Xaçmaz şəhərlərində daha qabarıq şəkildə müşahidə olunur. Səbəblər arasında iqtisadi fəaliyyətlərin, sənaye və xidmət sahələrinin əsasən bu məkanlarda cəmləşməsi, eləcə də infrastrukturun daha inkişaf etmiş olması dayanır. Buna qarşılıq olaraq ucqar kəndlərdə və dağətəyi ərazilərdə məskunlaşma səviyyəsi xeyli aşağıdır. Bir çox kəndlərdə əhali sayı minimuma enmiş, bəzi hallarda isə tamamilə tərk edilmiş yaşayış məntəqələri meydana çıxmışdır. Bu hal ilk növbədə sosial infrastrukturun – səhiyyə, təhsil, nəqliyyat və kommunal xidmətlərin qeyri-kafi səviyyədə inkişaf etməsi ilə bağlıdır. Əhalinin bu ərazilərdə yaşamaq üçün kifayət qədər sosial və iqtisadi motivasiyaya sahib olmaması miqrasiyanı stimullaşdırır və urbanizasiya proseslərini sürətləndirir. Ərazi məskunlaşmasındakı bu qeyri-bərabərlik regionun inkişafında bir sıra problemlərə yol açır. İlk növbədə sosial xidmətlərin əhali üzrə ədalətli və balanslı bölgüsünə maneə yaranır. Məsələn, mərkəzi şəhərlərdə xəstəxana və təhsil ocaqlarının sayı nisbətən çox olsa da, kəndlərdə bu sahələr üzrə ciddi çatışmazlıqlar mövcuddur. Bu da kənd əhalisinin həyat keyfiyyətinə mənfi təsir göstərir, sosial bərabərsizlik və regional inkişaf fərqlərinin dərinləşməsinə səbəb olur. Eyni zamanda məskunlaşmanın qeyri-bərabərliyi kənd təsərrüfatı resurslarının istifadəsində də effektivliyin azalmasına gətirib çıxarır. Əmək ehtiyatlarının kəndlərdən axını torpaq sahələrinin becərilməməsinə, kənd təsərrüfatı məhsuldarlığının istehsal gücünün aşağı düşməsinə və ərzaq təhlükəsizliyi baxımından potensial itkilərə səbəb olur. Bundan əlavə ucqar dağ kəndlərində əhalinin sayının azalması regionun sosial-iqtisadi inkişafının planlaşdırılmasını çətinləşdirir və dövlət resurslarının səmərəsiz istifadəsinə gətirib çıxarır. Məskunlaşma strukturundakı problemlərin digər tərəfi də ekoloji və coğrafi risklərin nəzərə alınmaması ilə bağlıdır. Bunlarla yanaşı dağətəyi və sürüşmə ehtimalı olan ərazilərdə hələ də dağınıq məskunlaşma formalarının qalması, müvafiq təhlükəsizlik tədbirlərinin görülməməsi insan həyatı və əmlakı üçün ciddi risklər yaradır. Nəticə etibarilə regionda ərazi məskunlaşmasının cari vəziyyəti kompleks və çoxşaxəli bir problem olaraq qalır. Bu məsələnin həlli yalnız rayon planlaşdırılma tədbirləri ilə deyil, eyni zamanda iqtisadi stimullaşdırma, sosial təminatlar və regional inkişaf proqramları vasitəsilə mümkündür.

**Ərazi məskunlaşmasının tənzimlənməsi yolları**

Quba-Xaçmaz iqtisadi rayonunda ərazi məskunlaşmasının tənzimlənməsi, sosial-iqtisadi inkişafın dayanıqlılığını təmin edən mühüm amillərdən biridir. İqtisadi rayonun daxilində əhalinin bərabər yerləşdirilməməsi, xüsusilə kənd yaşayış məntəqələrində məskunlaşmanın azalması və şəhərlərə miqrasiyanın artması bir sıra sosial, infrastruktur və ekoloji problemlərə səbəb olur. Bu vəziyyətin aradan qaldırılması üçün kompleks və sistemli yanaşma tələb olunur. Əvvəla, balanslaşdırılmış məskunlaşmanın təmin olunması məqsədilə regiondaxili infrastrukturun inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri olmalıdır. Yolların, elektrik, qaz, su təchizatı və rabitə xidmətlərinin keyfiyyətli

və əlçatan olması kənd ərazilərində yaşayış üçün əlverişli şərait yaradır. Eyni zamanda təhsil və səhiyyə müəssisələrinin modernləşdirilməsi və onların kənd yerlərində yerləşməsi insan kapitalının həmin ərazilərdə qalmasına təkan verir. İkincisi, kənd yaşayış məntəqələrində sosial və iqtisadi şəraitin yaxşılaşdırılması vacib şərtdir. Bura aqroparkların yaranmasını da daxil etmək olar [1, s. 83]. Kənd təsərrüfatının müasirləşdirilməsi, aqrar sektorun texniki cəhətdən təmin olunması və yerli sahibkarlığın təşviqi kənddə məşğulluğun artmasına və əhalinin urbanizasiya prosesindən uzaq durmasına kömək edir [5]. Kənd evlərinin yenidən qurulması, ictimai xidmətlərə çıxışın artırılması və sosial infrastrukturun təkmilləşdirilməsi region əhalisinin yaşam keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldə bilər. Üçüncüsü, regiona investisiyaların cəlb olunması və bu prosesin təşviq edilməsi strateji əhəmiyyətə malikdir. Xüsusilə sənaye və aqrar emal sahələrində özəl sərmayələrin stimullaşdırılması, investorlara güzəştlərin tətbiqi və dövlət dəstəyinin göstərilməsi iqtisadi aktivliyin region daxilində bərabər paylanmasına xidmət edəcəkdir. Beləliklə, həm iş yerlərinin yaradılması, həm də əhalinin öz doğma torpaqlarında işləyib yaşaması üçün zəruri mühit formalaşdırılacaqdır. Bütün bu tədbirlərin səmərəli icrası üçün ərazi planlaşdırılması sisteminin təkmilləşdirilməsi və idarəetmədə innovativ metodların tətbiqi tələb olunur. Məskunlaşma prosesləri regional səviyyədə elmi əsaslarla idarə olunmalı, coğrafi informasiya sistemləri (CİS) və statistik analizlərdən istifadə edilməlidir. Ərazi yerləşməsi ilə bağlı strateji planlar hazırlanarkən, həm təbii resurslar, həm də sosial ehtiyaclar nəzərə alınmalıdır. Nəticə etibarilə, Quba-Xaçmaz iqtisadi rayonunda ərazi məskunlaşmasının düzgün tənzimlənməsi yalnız sosial rifahın artmasına deyil, eyni zamanda regionun iqtisadi potensialının tam şəkildə reallaşmasına şərait yarada bilər. Bu isə öz növbəsində regional bərabərliyi və milli inkişaf məqsədlərinin həyata keçirilməsini təmin edəcəkdir.

**Sənaye və ərazi siyasətinin inteqrasiyası**

Ərazi və sənaye siyasətinin inteqrasiyası müasir regional inkişaf strategiyalarında mühüm yer tutur. Bu inteqrasiya, yalnız iqtisadi artım deyil, həm də sosial tarazlıq, ekoloji dayanıqlılıq və məkan üzrə səmərəli resurs bölgüsünün təmin olunması baxımından vacibdir. Xüsusilə Quba-Xaçmaz iqtisadi rayonunda sənaye təşkili ilə ərazi məskunlaşması arasındakı əlaqənin gücləndirilməsi, regionun kompleks inkişafının əsas şərtlərindən biridir. Sənaye müəssisələrinin yerləşdirilməsi yalnız texniki və iqtisadi meyarlara əsaslanmamalı, eyni zamanda ərazi planlaşdırması prinsipləri ilə uzlaşdırılmalıdır. Yəni sənaye obyektlərinin layihələndirilməsi və inşası zamanı əhalinin sıx məskunlaşdığı bölgələr, mövcud infrastruktur imkanları, nəqliyyat əlaqələri, əmək resurslarının yerləşməsi və ekoloji risklər nəzərə alınmalıdır. Əks təqdirdə sənaye sahələrinin əhali mərkəzlərindən uzaq yerlərdə və ya əksinə artıq yüklənmiş urban ərazilərdə yerləşməsi bir sıra sosial, ekoloji və logistik problemlər yarada bilər. Quba-Xaçmaz regionunun coğrafi və demoqrafik quruluşu göstərir ki, sənaye fəaliyyəti əsasən şəhər mərkəzlərində – xüsusilə Xaçmaz və Quba şəhərlərində cəmləşib [4]. Lakin bu mərkəzlərdə sənaye obyektlərinin daha da artırılması, şəhər ətrafı ərazilərdə ekoloji gərginliyi artıra, yaşayış üçün əlverişli mühiti poza bilər. Bu baxımdan, sənayeləşmə siyasəti əhali məskunlaşmasını dəstəkləyəcək formada – yəni orta ölçülü şəhərlərin və iri kənd mərkəzlərinin inkişafını stimullaşdırmaqla həyata keçirilməlidir. Ərazi üzrə sənaye siyasətinin optimallaşdırılması üçün sənaye məhəllələri və texnoloji parkların planlı şəkildə inkişaf etdirilməsi mühüm vasitə ola bilər. Bu cür məhəllələrdə bir neçə sənaye sahəsi bir arada fəaliyyət göstərə bilər və onların yerləşdirilməsi zamanı su, enerji, nəqliyyat və əmək bazarına çıxış kimi amillər nəzərə alınmalıdır. Belə planlaşdırma həm iqtisadi səmərəliliyi artıracaq, həm də sənaye ilə yaşayış məntəqələri arasında harmoniya yaradacaqdır. Eyni zamanda sənaye fəaliyyətinin ərazi məskunlaşmasına təsiri təkcə iqtisadi deyil, sosial aspektlər baxımından da nəzərə alınmalıdır. Sənaye obyektlərinin yerləşdirildiyi ərazilərdə əhalinin yaşayış səviyyəsini artırmaq üçün paralel şəkildə təhsil, səhiyyə, istirahət və digər ictimai infrastruktur sahələri də inkişaf etdirilməlidir. Əks halda sənayenin inkişafı əraziyə yalnız müvəqqəti iqtisadi fayda gətirəcək, lakin uzunmüddətli sosial və demoqrafik tarazlığa mənfi təsir göstərə bilər. Nəticə etibarilə sənaye və ərazi siyasətinin uzlaşdırılması yalnız planlaşdırma sənədləri səviyyəsində deyil, eyni zamanda yerli idarəetmə, icma təşəbbüsləri və dövlət investisiya siyasəti vasitəsilə

praktiki həyata keçirilməlidir. Bu inteqrasiya sayəsində Quba-Xaçmaz regionunda sənayeləşmə, əhalinin həyat keyfiyyəti və məkan üzrə balanslı inkişaf birgə təmin oluna bilər.

**YEKUN NƏTİCƏ**

Quba-Xaçmaz iqtisadi rayonunun sənaye və ərazi siyasətinin inteqrasiyası, regionun davamlı inkişafını təmin etmənin ən vacib istiqamətlərindən biridir. Regionun iqtisadi potensialı yüksək olsa da, sənaye sahələrinin ərazi təşkili qeyri-bərabər planlaşdırılıb, bu da ərazi üzrə əhali məskunlaşmasında ciddi problemləyin yaranmasına səbəb olub. Bu problemin aradan qaldırılması yolu ilə sənaye və ərazi planlaşdırmasının uyğunlaşdırılması, regionun mövcud resurslarını daha səmərəli istifadə etməklə yanaşı, sosial və ekoloji problemləri də minimuma endirə bilər. Məqsəd yalnız iqtisadi artımı deyil, həm də əhalinin sosial həyat tərzinin yaxşılaşdırılmasını və ərazi üzrə inkişafın balanslaşdırılmasını təmin etməkdir. Məqsədə çatmaq üçün yerli idarəetmə strukturları, iqtisadiyyatın müxtəlif sahələri və əhali arasındakı əlaqələrin daha sıx və sinergetik olmasına yönəlmiş strategiyalar tətbiq edilməlidir. Eyni zamanda, ərazi planlaşdırmasının effektivliyi, iqtisadiyyatın müxtəlif sahələrinin, xüsusilə kənd təsərrüfatı və sənayenin uyğun şəkildə inkişaf etdirilməsindən asılıdır [2, s. 27]. Yalnız bu halda, regionda iqtisadi və sosial inkişafın davamlığı təmin edilə bilər.

**Təkliflər**

- **Sənaye və ərazi planlaşdırmasının koordinasiyası**. Quba-Xaçmaz iqtisadi rayonunda sənaye obyektlərinin yerləşdirilməsi əhali məskunlaşmasının nəzərə alındığı ərazilərdə həyata keçirilməlidir. Ərazi planlaşdırması ilə sənaye siyasətinin uzlaşdırılması, regionun iqtisadi və sosial inkişafı üçün əhəmiyyətli bir amildir. Bu məqsədlə ərazi inkişafı planları hazırlanarkən, şəhər və kənd əraziləri arasındakı tarazlıq qorunmalı və sənaye inkişafı ilə bağlı qarşılıqlı əlaqələr müasir şəhərsalma və infrastruktura uyğun şəkildə tənzimlənməlidir. Sənaye obyektlərinin əhali sıxlığının az olduğu ərazilərdə yerləşdirilməsi, əhalinin miqrasiya hərəkatını və sosial gərginliyi azaltmağa kömək edəcəkdir.
- **Yerli resurslardan səmərəli istifadə və təkrar emal sistemlərinin inkişafı**. Quba-Xaçmaz iqtisadi rayonu kənd təsərrüfatı sahəsində zəngin təbii resurslara malikdir. Bu resursların səmərəli istifadəsi aqrar sənaye sektorunun inkişafını sürətləndirə bilər. Yerli xammalın emalı və dəyər yaradılması məqsədilə emal sənayelərinin, xüsusən də kənd təsərrüfatı məhsullarının emalı və tikinti materiallarının istehsalı sahələrinin inkişaf etdirilməsi vacibdir. Həmçinin, regionda təkrar emal sistemlərinin yaradılması, tullantıların azaldılması və təbii ehtiyatların qorunmasına mühüm töhfə verəcəkdir. Bu proses, eyni zamanda, yeni iş yerlərinin açılmasına və kənd təsərrüfatının daha rəqabətədavamlı olmasına səbəb olacaqdır.
- **İnfrastrukturun inkişafı və bərpa edilməsi**. Regionda sənaye inkişafını dəstəkləyən infrastrukturun inkişafı vacibdir. Bu məqsədlə nəqliyyat əlaqələrinin yaxşılaşdırılması, elektrik enerjisi və su təchizatı şəbəkələrinin təkmilləşdirilməsi, internet və rabitə xidmətlərinin əlçatanlığının artırılması zəruridir. Bu, yalnız sənaye müəssisələrinin inkişafını deyil, həm də əhali üçün daha yaxşı yaşam şəraitinin yaradılmasını təmin edəcəkdir. Eyni zamanda ətraf mühitin qorunması məqsədilə sənaye müəssisələrinin ekoloji baxımdan təmiz texnologiyalarla təchiz olunması, regionda ekoloji tarazlığın təmin olunmasına töhfə verəcəkdir.
- **Əmək bazarının inkişafı.** Ərazi üzrə sənaye inkişafını dəstəkləmək üçün yüksək ixtisaslı əmək bazarının formalaşması vacibdir. Quba-Xaçmaz regionunda sənaye sahələrinin inkişafı ilə bağlı ixtisaslaşmış təhsil proqramlarının yaradılması təklif olunur. Əmək bazarına uyğun olan təhsil və peşə proqramları vasitəsilə yerli əhalinin sənaye sektoruna uyğunlaşması və yüksək texniki biliklərə yiyələnməsi təmin edilməlidir. Həmçinin gənc işçilərin peşə bacarıqlarını inkişaf etdirmək üçün təcrübə proqramları və təlim mərkəzləri yaradılmalıdır.
- **Regional inkişafın dəstəklənməsi və dövlət siyasəti**. Regionun inkişafı üçün dövlət səviyyəsində xüsusi regional inkişaf proqramlarının yaradılması vacibdir. Bu proqramlar ərazinin xüsusiyyətlərinə uyğun şəkildə hazırlanmalı, sənaye və kənd təsərrüfatı sahələrinin balanslı

inkişafını təmin etməlidir. Dövlət, sənaye parkları və istehsal sahələrinin inkişafını dəstəkləməli, yeni müəssisələr üçün investisiya şəraiti yaratmalıdır. Həmçinin yerli hökumətlərə dəstək verilməli, kiçik və orta sahibkarlığın inkişafı stimullaşdırılmalıdır. Bu addımlar, regionda iqtisadiyyatın şaxələndirilməsini və inkişafın hərtərəfli şəkildə təşviqini təmin edəcəkdir.

## ƏDƏBİYYAT


1. Allahverdiyev, K.Ş., Dibirona, M.İ. Quba-Xaçmaz iqtisadi rayonunda kənd təsərrüfatı sahələrinin inkişaf istiqamətləri // "Kooperasiya" elmi-praktiki jurnal, - 2021, 2 (61), - s. 27-34.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Ev təsərrüfatlarının sənaye fəaliyyətinin öyrənilməsinə dair seçmə statistika müayinəsinin nəticələri. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, - 2015, - 100 s.
3. Ələkbərov, E., Süleymanova, Ə., Musayev, R. Aqroparkların yaradılması imkanlarının müəyyən edilməsi: Quba-Xaçmaz iqtisadi rayonu timsalında // Azərbaycanın Vergi Jurnalı, - 2021, - s. 83-95.
4. Əliquliyeva, R.S. Quba-Xaçmaz iqtisadi rayonunda miqrasiyanın demoqrafik proseslərə təsiri. Azərbaycan Respublikası 1991-2021: Dövlət müstəqilliyinin bərpası, iqtisadi və sosial-mədəni inkişafı, - 2021.
5. Huseynova, T.M. Əhalinin Yaşayış Keyfiyyətinə Təsir Edən Sosial-İqtisadi Amillər (Azərbaycan Respublikasının Böyük Qafqaz Vilayəti Timsalında) // Akademik Tarih ve Düşünce Dergisi, - 2024, 11 (2), - s. 880-889.
6. Kərimov, N. Heydər Əliyev və Azərbaycan Respublikasının şimal-şərq regionunun inkişafının tarixşünaslığı // Eynternational İctimai-siyasi, Elmi-nəzəri Jurnal, - 2024, 06 (84), - s. 104-108.
7. Məmmədova, A.Z. Kənd yerlərinin davamlı inkişafının təmin edilməsində məşğulluğun rolu // Elmi Xəbərlər, - 2023. №2, - s. 50-58.
8. Qurbanova, İ. Məşğulluğun yaxşılaşdırılmasına regional aspektdən yanaşma // İpək Yolu, - 2023. №4, - s. 78-87.


## TERRITORIAL-INDUSTRIAL ALIGNMENT: THE CASE OF QUBA-KHACHMAZ

**E.G. Huseynova**


The Quba-Khachmaz region is located in the northeastern part of Azerbaijan, holding significant economic and geographical importance. The region stands out for its natural resources, agricultural potential, and strategic location. Although various initiatives have been undertaken in recent years to develop industrial sectors in the region, the full realization of its industrial potential still faces significant challenges. The development of industry and the proper regulation of territorial settlement are crucial for ensuring both economic growth and the preservation of social justice. This paper discusses the optimization of industrial organization and the improvement of territorial settlement in the Quba-Khachmaz region. The main goal is to propose measures for the balanced development of industry and the optimization of population density across the region. The paper analyzes the current state of industrial sectors and presents strategic approaches for achieving a balanced population distribution. Additionally, the importance of integrating industrial and territorial policies is emphasized. This research provides specific and practical recommendations for optimizing industrial organization and territorial settlement to further advance the socio-economic development of the Quba-Khachmaz region and improve the living standards of its population.


**Key words**: *Guba-Khachmaz, industry, territory, settlement, optimization*

# ТЕРРИТОРИАЛЬНО-ПРОМЫШЛЕННАЯ КОНЦЕНТРАЦИЯ: НА ПРИМЕРЕ ГУБА-ХАЧМАЗСКОГО РЕГИОНА

**Э.Г. Гусейнова**

Регион Куба-Хачмаз расположен на северо-востоке Азербайджана и обладает важным экономическим и географическим значением. Регион выделяется своими природными ресурсами, сельскохозяйственным потенциалом и стратегическим расположением. Несмотря на различные инициативы по развитию промышленности в последние годы, полное раскрытие промышленного потенциала региона сталкивается с серьезными вызовами. Развитие промышленности и правильная регуляция территориального расселения являются ключевыми для обеспечения экономического роста и сохранения социальной справедливости. В статье рассматриваются вопросы оптимизации промышленной организации и улучшения территориального расселения в регионе Куба-Хачмаз. Основная цель — предложить меры для сбалансированного развития промышленности и оптимизации плотности населения по региону. В статье анализируется текущее состояние промышленных секторов и представлены стратегические подходы для достижения сбалансированного распределения населения. Также подчеркивается важность интеграции промышленной и территориальной политики. Исследование предоставляет конкретные и практические рекомендации по оптимизации промышленной организации и территориального расселения для дальнейшего социально-экономического развития региона Куба-Хачмаз и улучшения качества жизни его населения.

**Ключевые слова**: *Куба-Хачмаз, промышленность, территория, расселение, оптимизация.*